**UOT 82**
https://doi.org/10.59849/2311-8482.2025.4.14

**SƏADƏT BAYRAMOVA***

# XX ƏSR AZƏRBAYCAN NƏSRİNDƏ NAĞIL TƏHKİYƏSİNİN XÜSUSİYYƏTLƏRİ

*XX əsr Azərbaycan nəsrində nağıl təhkiyəsi milli ədəbiyyatın inkişaf dinamikasında mühüm rol oynamış və yazıçıların bədii üslubuna təsir edən əsas komponentlərdən biri kimi formalaşmışdır. Bu dövrdə yazıçılar ənənəvi folklor elementlərini modern ədəbi kontekstdə yenidən işləyərək, onları müxtəlif bədii janrlara inteqrasiya etdirmişlər. Nağıl təhkiyəsinin əsas xüsusiyyətləri XX əsr Azərbaycan nəsrində təkcə məzmun deyil, həm də struktur və üslub baxımından nəzərə çarpır.*

*Nağıl təhkiyəsi əsasən xalq ədəbiyyatının spesifik elementlərinə – qəhrəmanların fantastik güclərə malik olması, xeyirlə şərin mübarizəsi, üçlük qanunu, təkrirlər və obrazların şərtiliyi kimi xüsusiyyətlərə əsaslanır. XX əsr Azərbaycan nəsrində bu xüsusiyyətlər müxtəlif bədii üslublarla sintez edilərək təqdim olunmuşdur. Xüsusilə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli kimi yazıçıların əsərlərində xalq nağıllarına xas olan elementlər müşahidə edilir.*

*Məqalədə qeyd olunur ki, XX əsr Azərbaycan nəsrində nağıl təhkiyəsi ənənəvi xalq yaradıcılığı ilə müasir bədii-estetik dəyərlərin sintezini əks etdirən mühüm ədəbi vasitə olmuşdur. Bu yanaşma həm nəsrin janr müxtəlifliyini artırmış, həm də milli-mənəvi dəyərlərin qorunub saxlanmasına və inkişafına töhfə vermişdir.*

***Açar sözlər:*** *nağıl, təhkiyə, nəsr, xalq yaradıcılığı, ədəbiyyat*

## Giriş

XX əsr Azərbaycan ədəbiyyatında nağıl mövzusunun fəallığı cəmiyyətin sosial-mənəvi həyatındakı tarixi proseslərlə sıx bağlıdır. Milli varlığın əsas mövcudluq qaynaqlarından olan xalq yaradıcılığı təkanverici mənəvi sistem kimi daim yazılı düşüncəni qidalandırmış, ənənə ilə əlaqənin təminatçısına çevrilmişdir. Cəmiyyətin ictimai, siyasi, mədəni həyatında baş verənlər, yüzilliyin özünün doğurduğu problemlər bütünlükdə milli ictimai-bədii təfəkkürü məşğul edən əsas məsələlərdən idi. Azərbaycan ədəbiyyatı həmişə ideya-estetik düşüncənin tərkib hissəsi kimi mövcud mənzərəni müxtəlif səpkili bədii axtarışlarda, çeşidli forma və üsullarda inikas etmək məharəti ilə seçilmişdir. Çarizmin müstəmləkəçilik siyasəti, sovet rejimi, onun formalaşdırdığı və formalaşdırmaq istədiyi «sovet insanı», «sovet cəmiyyəti» təsəvvürləri və s. əslində, milli-mənəvi sistemi zədələməyə və tədricən aşındırıb dağıtmağa yönəlmişdi. Milli varlığın qoruyucusu olan bədii ədəbiyyat bütün zamanlarda olduğu kimi, sözügedən tarixi mərhələdə də ağırlığı öz üzərinə götürərək, nağıl, rəvayət, əfsanə, epos ənənəsinə müraciəti aktuallaşdırmaqla tarixi yaddaşın bərpasına, etnosun mifdən, genetik düşüncədən gələn təsəvvürlərinin möhkəmləndirilməsinə üstünlük verdi. XX əsr Azərbaycan bədii düşüncəsi üçün xarakterik xüsusiyyətlərdən biri nağıl mövzusundan bəhrələnməklə mühiti inkişaf etdirmək, bu janrın imkanlarından istifadə yolu ilə sətiraltı şəkildə ictimai-mədəni mühitə müəyyən işarələr verməkdir [5, s.89].

Milli-mənəvi yaddaşın qorunması, möhkəmləndirilməsi və müxtəlif for malarda gələ cəyə daşınması bədii-estetik düşüncəni bütün əsr boyu məşğul edən əsas məsələlərdən olmuşdur. Ona görə də əsrin əvvəllərindən, daha doğrusu, XIX yüzilliyin sonlarından başlayaraq, nağıl mövzularında yazılmış bədii əsərlərlə cəmiyyəti ifadə etmək bir istiqamət olaraq bütünlükdə ədəbiyyatın diqqət mərkəzində idi. Nağıllardakı poetik sistem, mətnin daxili aləmi, kanonik quruluş, üslubi formullar yazıçı məqsəd-məramının ifadəsi üçün vasitə və manera funksiyası rolunu oynayır. Burada maarifləndirmə, uşaq ədəbiyyatının prinsip və texnologiyalarından istifadə ilə uşaqlar üçün nümunələr yaratmaq, siyasi mühitin ifadəsi və s. məsələlər çoxşaxəli şəkildə özünə yer alır. Nağıl-poema, nağıl-hekayə, nağıl-povest, nağıl-roman, nağıl-dram, nağıl-oçerk və s. formalar sənətkar

axtarışlarında yeni tipologiyanı və yeni janr texnologiyalarını müəyyənləşdirir. Əsrin bədii zənginliyində milli düşüncənin ifadə və yaşam hadisəsi kimi, bunların mahiyyətinin müəyyənləşməsi aktual məsələlərdən biri olaraq folklorşünaslığın diqqət mərkəzində dayanır. Müasir ədəbi-nəzəri fikir təkcə keyfiyyət parametrləri müstəvisində deyil, həm də qloballaşan dünyada milli düşüncənin qorunuşu, etno-mədəni istiqamətlərin müəyyənliyi üçün də bütün tərəfləri ilə geniş təhlillərə üstünlük verir.

**Əsas hissə**

Tarixi gerçəkliyin fərqli inikası, yazıçı və folklor problemi, yazılı və şifahi ədəbiyyatın üzvi vəhdət halında olan janr texnologiyalarının işləkliyi, ayrıayrı zaman kəsiyində etnosun bədii yaddaşında qəliblənmiş formulların daha da fəallıq qazanması və s. məsələlər çağdaş filoloji fikrin diqqət yetirdiyi məsələlərdəndir. XX əsr Azərbaycan ədəbiyyatı bu problemlərin öyrənilməsi üçün olduqca geniş material verir. Yaradıcı mühitin bu üsul və vasitələrdən bəhrə - lən məyə üstünlük verməsinin məqsəd və mahiyyəti, nağıllardakı mövzu, hadisə, motiv məsələlərinin əsərin adından daxili ma - hiyyətinə qədər bütün müstəvilərdə özünə yer almasının səbəbləri və məna yaratmada yeri, üslubi formul funksiyaları aktuallıq kəsb edən məsələlərdəndir. Bütün bunlar XX əsr ədəbiyyatının məqsəd və məramını, ideya-estetik mahiyyətini, müxtəlif yönlü sənət axtarışlarını, forma və üsul müəyyənliyini, yazıçı və folklor problemini, nağıl texnologiyalarının bədii düşüncə üçün nə dərəcədə əhəmiyyət daşıdığını ortaya qoyan aktual məsələlərdir [2, s.110].

Ümumiyyətlə, XX əsr Azərbaycanın ictimai, siyasi, mədəni həyatında kifayət qədər rəngarəngliklərlə, müxtəlifliklərlə, o cümlədən də ədəbi-mədəni həyatın rəngarəng xarakteri ilə səciyyələnir.

Ona görə də son yüzillik bütün tərəfləri ilə Azərbaycan tarixindəxüsusi mərhələ kimi vurğulanır. Məhz bu səbəbdən də müxtəlif istiqamətli elmi-nəzəri araşdırmaları aktuallaşdırır. Həmin ədəbieste tik problemlər sırasında diqqətçəkən məsələlərdən biri də yazılı ədəbiyyatda nağıl mövzusunun inikası ilə bağlıdır.

Məlum olduğu kimi, nağıl Azərbaycan şifahi xalq ədəbiyyatında mühüm yer tutan və müxtəlif tədqiqatların problemi olan janrdır. Həm dünya, həm də Azərbaycan folklorşünaslığında onunla bağlı kifayət qədər ciddi araşdırmalar aparılmış, toplanması, nəşri ilə əlaqədar gərəkli işlər görülmüşdür. Hələ bundan çox-çox əvvəl klassiklərimiz nağılların süjet, motiv və ideyalarından lazımi qədər ustalıqla bəhrələnmişdir. Nizami Gəncəvinin, Qul Əlinin , Əssar Təbrizinin , Fədainin və başqalarının yara dıcılığı buna nümunədir. Onlar nağıl mo tivlərindən, xalq yaradıcılığının müxtəlif üslub və forma çalarlarından istifadə etməklə əsərlərinə dərin məzmunlu xəlqi keyfiyyət, ölümsüzlük qazandırmışlar. Dahi mütəfəkkir N.Gəncəvinin yaradıcılığı bunun üçün klassik nümunədir. Y.Bertels çox doğru olaraq həmin keyfiyyəti belə vurğulayır: «Əgər Nizami bəlli olmayan başqa yazılı mənbələrdən istifadə etməmişsə (bir sıra səbəbə görə bunu təsdiq etmək çətindir), o zaman Azərbaycanda çox geniş yayılmış olan şifahi rəvayətlər onun üçün başlıca material olmuşdur» [4, s.67]. Böyük söz ustadının «Sirlər xəzinəsi» əsərində «Özündən naümid padşahın dastanı», «Nuşirəvan və bayquşların söhbəti», «Süleyman və əkinçi», «Sultan Səncər və qarı», «Meyvəsatanla tülkünün nağılı», «Bir şahzadənin dastanı» və s. «Leyli və Məcnun» poemasındakı məşhur «Hekayət» (Mərv ölkəsindəki şahla bağlı olan nağıl-rəvayət nəzərdə tutulur), «Yeddi gözəl» poemasındakı yeddi qızın hekayətini («Kəniz satan padşahın hekayəti», «Bişirin hekayəsi və onun aşiq olması», «Rus qızının hekayəsi», «Mahanın hekayəsi», «Xeyir ilə Şərin hekayəsi» və s.) xatırlamaq yetərlidir. Bunlar hamısı N.Gəncəvinin fəlsəfi düşüncələrini, eləcə də məqsəd və ideallarını açmaq üçün bir vasitə olmuşdur. Bir istiqamətdə burada əsərin poetik mündəricəsində dayanan hadisələr özünün əksini tapırsa, digər istiqamətdə bu formullar özü vasitəyə çevrilir. Sənətkar məqsədli şəkildə həmin örnəklərə müraciət edir[1, s.67]. .

Burada müxtəlif aspektlər – maarifləndirmə, didaktika, yaradıcı fərdin mövcud vəziyyətə etirazı, cəmiyyətin narazılıqları və digər mövzular böyük məharətlə birləşdirilir. Nizami Gəncəvinin bütün poemalarında bu, bir prinsip kimi öz əksini tapır. Fədainin "Bəxtiyarnamə" əsərində də nağıl formullarına üstünlük verildiyi açıq şəkildə görünür. Əsərdə on vəzir obrazı və onlara uyğun təqdim olunan hekayə-nağıllar diqqət çəkir. Məsələn, "Bəxtiyarın tacir macərasını nağıl etməsi", "Xacə Həsən Bəzirganın hekayəsi", "Bəxtiyarın Sabir sərgüzəştini nağıl etməsi" və digər süjet parçaları nağıl üslubunda qurulmuşdur. Əsas məsələ isə müəllifin bu üslubdan hansı məqsədlə və nə dərəcədə istifadə etməsidir.

Qeyd etmək lazımdır ki, Fədai ənənəvi mövzunu öz baxış bucağına və ruhuna uyğun işləyərək, əsas süjet xəttini qorusa da, yaradıcılıq baxımından müəyyən əlavələr və dəyişikliklər etmişdir. O, qədim Şərq əfsanəsini orta əsrlər insanını düşündürən mənəvi azadlıq problemi, onun nəcib və saf arzuları, eləcə də müasir həyatla vəhdətdə təqdim etmişdir. Bu səbəbdən, əsərdə müasirlik duyğusu olduqca güclüdür. Fədai sanki keçmişdən qalan bir nağıl danışmır, əksinə, gördüyü və şahidi olduğu hadisələri qələmə alır, real və inandırıcı təsvirlər, ibrətamiz nümunələr, lirik haşiyələr və müraciətlərlə poemanı öz dövrü ilə əlaqələndirir. O, təsvir etdiyi qəhrəman və obrazları müasir insan kimi canlandırır. Ədəbiyyatımızda bu yanaşma bir ənənə kimi qəbul edilir.

XX əsr Azərbaycan ədəbiyyatında nağıl motivlərinə müraciət daha çox real şəraitin diktə etdiyi bir zərurət kimi görünür. XIX əsrin sonu və XX əsrin əvvəllərində romantik ədəbiyyatın maarifçilik məqsədinə xidmət etdiyi halda, əsrin ortalarına doğru bu üsul fikrin üstüörtülü və mətnaltı ifadə vasitəsinə çevrilmişdir. Cəmiyyətin yenidən qurulmasında mədəni tərəqqinin vacib elementləri – məktəb, ədəbiyyat, əlifba, dil, elm, mətbuat, nəşriyyat, dərslik, teatr və digər sahələr geniş müzakirə mövzusuna çevrilmişdi. Bu prosesin ağırlığını bədii məkan öz üzərinə götürmüş və müxtəlif formalarda maraq doğurmuşdu. Xalq yaddaşına əsaslanan nağıl strukturlarından istifadə bu kontekstdə xüsusi əhəmiyyət kəsb edirdi. Ümumilikdə, XX əsr Azərbaycan ədəbiyyatında nağıldan faydalanmanın mahiyyəti problem müstəvisində bu şəkildə xarakterizə olunur:

-*XX əsrin əvvəllərində maarifçi dövr (1900–1920).* Bu mərhələdə Y.V. Çəmənzəminli, A. Şaiq, S.S. Axundov, Ə. Haqverdiyev, M.Ə. Sabir, A. Səhhət, S. Hüseyn, Ü. Hacıbəyov, F. Köçərli və digər yazıçılar etnosun özünü dərk etməsi və maarifçilik ideyalarını ön plana çəkirdilər. Onlar xalq dünyagörüşündən qaynaqlanan modellərdən istifadə edərək məqsədlərinə nail olmağa çalışırdılar.

*1920–1960-cı illər dövründə* isə siyasi şəraitin dəyişməsi və imperiya rejiminin sərt idarəçilik siyasəti ədəbi ifadə üsullarında yenilikləri zəruri edirdi. Bu səbəbdən ədalətsiz hökmdarların və şahların müxtəlif formalarda bədii ədəbiyyata gətirilməsi əsas istiqamətlərdən birinə çevrildi. Metaforik informasiyalar real mühitlə əlaqələndirilir və eyni zamanda, dövrün ictimai-siyasi şəraitini ifadə edirdi. T. Şahbazinin, S. Vurğunun, M. Müşfiqin, S. Rəhimovun, M. İbrahimovun, M. Rzaquluzadənin, M. Təhmasibin, M.M. Seyidzadənin, Ə. Cəmilin, O. Sarıvəllinin, M. Dilbazinin və digər yazıçıların yaradıcılığında bu tendensiya aydın şəkildə müşahidə olunur.

*1960–2000-ci illər dövrü.* Bu mərhələdə sinfi yanaşmalar arxa plana keçir və hadisələr əsasən milli baxış bucağından dəyərləndirilir. Əvvəlki dövrdə tez-tez rast gəlinən qəddar və zalım hökmdar obrazları yeni üslubda bədii mətnlərdə əks olunur. Bədii təfəkkür əsasən etnosun özünü dərk etməsinə, milli dəyərlərin və davranış prinsiplərinin qorunmasına yönəlir. Bu dövrdə İ.Şıxlı, İ.Əfəndiyev, İ.Hüseynov, H.Arif, Y.Səməd oğlu, Ə.Cəfərzadə, İ.Məlikzadə, F.Kərimzadə, X.Hasilova, Ə.Babayeva, X.Əlibəyli, Anar, Elçin, A.Kəmərli, T.Mahmud, N.Kəsəmənli, M.Süleymanlı, Z.Xəlil, R.Gənzəli və digər sənətkarların yaradıcılığında keyfiyyət dəyişiklikləri və fərqli yanaşmalar ön plana çıxır [10, s.79].

XX əsr Azərbaycan ədəbiyyatı üslub və düşüncə müxtəlifliyi, eləcə də ədəbi axtarışların rəngarəngliyi ilə xarakterizə olunur. Bu dövrdə M.F.Axundzadə və H.Zərdabinin əsasını qoyduğu

milli ideya müxtəlif mərhələlərdə gerçəkləşərək taleyüklü bir proses kimi yaşanır. İctimai-siyasi, tarixi və mədəni dəyərlərin yeni çalarları formalaşır. Ölkənin ictimai-siyasi həyatında baş verən dəyişikliklər ədəbiyyata da sirayət edir və ədəbiyyat bir növ ideoloji və siyasi mübarizənin əsas yükünü öz üzərinə götürür.

"Əkinçi", "Kəşkül", "Ziyayi-Qafqaziyyə" kimi nəşrlər milli ideyanın inkişafına istiqamət verərək, onun əsas prinsiplərini müəyyənləşdirir. İctimai həyat və ədəbi proses yeni bir mərhələyə qədəm qoyur. H.Zərdabi, M.Şahtaxtlı, Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə və digər görkəmli şəxsiyyətlər milli düşüncənin formalaşması yolunda mühüm işlər görmüş və onların fəaliyyəti bütün əsr boyu ədəbi proseslərə öz təsirini göstərmişdir [6, s.55].

Akademik İ. Həbibbəyli XX əsrin əvvəllərindəki vəziyyəti xarakterizə edərək bildirir ki, Cəlil Məmmədquluzadə “Poçt qutusu” və “Usta Zeynal” hekayələri ilə dövrün reallıqlarını canlandırmış, saf, sadə, dindar və sədaqətli insanların təbii obrazını yaratmış, eyni zamanda milli oyanış və maarifçiliyin vacibliyini açıq şəkildə vurğulamışdır.

Onun 1906-cı ildə yazdığı “İranda hürriyyət” hekayəsi isə dərin məzmunu və düşündürücü mövzusu ilə milli özünüdərk nümunəsi kimi dəyərləndirilir. Bu əsərlərdə həmin dövrün sosial mənzərəsi ətraflı şəkildə öz əksini tapır. Şübhəsiz ki, siyasi hadisələrin ədəbi prosesə təsiri fərqli baxışları, düşüncə tiplərini və mövqeləri formalaşdırırdı.

Bu kontekstdə Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Nəriman Nərimanov və Ağa Aşurov kimi ictimai-siyasi xadimlərin fəaliyyətini nəzərə aldıqda, məsələnin miqyası daha da genişlənir. Beləliklə, həmin dövrdə milli mətbuat milli ideyanın ifadə olunduğu əsas platformaya çevrilmiş, ictimai, siyasi və ədəbi publisistika bu yükü öz üzərinə götürmüşdür [9, s.32].

Çar Rusiyasının imperiya siyasəti, XX əsrin əvvəllərində Azərbaycanın müstəqillik qazanması, lakin tezliklə bolşeviklərin müstəmləkəçilik siyasəti nəticəsində bu azadlığın yenidən itirilməsi, kollektivləşmə dövründə baş verən hadisələr, 1937-ci il repressiyaları, əsrin sonlarında isə Sovet İttifaqının süqutu, müharibələr və işğallar – bütün bunlar xalqın, ədəbiyyatın və ədəbi düşüncənin taleyindən keçmişdir. Buna görə də XX əsrə geniş və yaradıcı baxış bucağından yanaşmaq vacibdir. Burada hadisələrə fərqli yanaşmalar, onların bədii ifadəsi və xalqa çatdırılması yaradıcı məsuliyyət və vətəndaşlıq duyğusu ilə birləşirdi. Romantizm nümayəndələri – Ə. Hüseynzadə, M. Hadi, H. Cavid, A. Şaiq, A. Səhhət, A. Divanbəyoğlu, Ə. Müznib və digərləri, eləcə də tənqidi realist ədəbiyyatın görkəmli simaları C. Məmmədquluzadə, M.Ə. Sabir, Ə. Haqverdiyev, N. Nərimanov, Ə. Nəzmi, M.S. Ordubadi, Əliqulu Qəmküsar, Mirzə Əli Möcüz, Bayraməli Abbaszadə və maarifçi realist ədəbiyyatın nümayəndələri S. S. Axundov, Ü. Hacıbəyov, A. Şaiq, S. Qənizadə, R. Əfəndiyev, Y. V. Çəmənzəminli, İ. Musabəyov və başqalarının hadisələrə münasibəti bunun bariz nümunəsidir [8, s.24].

Milli tariximizin elə bir dövrü olmayıb ki, bu qədər geniş, çoxşaxəli və dərin inkişaf etsin, mühüm tarixi nəticələr əldə olunsun (milli şüurun formalaşması və dövlətçiliyin yaranması), iqtisadiyyat ən yüksək səviyyəyə çatsın və Azərbaycan bütün sahələrdə dünya ilə inteqrasiya etsin.

Cəmi bir neçə onillik əvvəl milli kimliyini tam müəyyənləşdirməmiş bir xalq, siyasi təfəkkür baxımından inkişaf edərək ən yüksək zirvəyə çatmış və bunun nəticəsi olaraq tarixdə ilk dəfə parlamentli dövlət – Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Azərbaycan xalqı heç bir dövrdə bu mərhələdə olduğu qədər fikir adamlarına, milli hərəkat liderlərinə, ziyalılara, şairlərə, yazıçılara və publisistlərə sahib olmamışdı. Onların düşüncəsinin əsasını Vətən, Azərbaycan və onun gələcəyi təşkil edirdi. Buna görə də onlar hadisələrə və problemlərə maarifçilik prizmasından yanaşırdılar ki, bu da həmin dövrdə bədii düşüncədə daha qabarıq şəkildə özünü göstərirdi.

Həsən bəy Zərdabi öz müasirlərinə dönə-dönə çağırış edirdi ki, xalqın anlayacağı dildə əsərlər yazsınlar. Məhz bu dövrdə realist maarifçi ziyalıların və romantik ədəbiyyat nümayəndələrinin nağıl mövzusuna müraciət etməsi təsadüfi deyildi. Bu, xalqı maarifləndirmək və sadə, aydın xalq təfəkkürü ilə yetişdirmək məqsədindən irəli gəlirdi. Çünki "xalqilik böyük sənətin ən mühüm meyarıdır". İstər nəzəriyyələr, intellektuallıq, realizm, psixologizm, istərsə də bədii forma zənginliyi haqqında danışsaq da, nəticə etibarilə əsas olan odur ki, şeirin ruhu xalqın ruhuna, fəlsəfəsi xalqın həyat fəlsəfəsinə, əxlaqı xalqın mənəvi dəyərlərinə və dili xalqın dilinə uyğun olmalıdır.

**Nəticə**

XX əsr Azərbaycan nəsrində nağıl təhkiyəsinin xüsusiyyətləri ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. Bu dövrdə yazıçılar klassik nağıl janrının ənənəvi xüsusiyyətlərini qoruyaraq, onu müasir nəsrin tələblərinə uyğun şəkildə yenidən işlətmişlər. Nağıl elementlərindən istifadə edərək yaradılan əsərlər həm milli-mənəvi dəyərlərin təbliğinə xidmət etmiş, həm də sosial, psixoloji və fəlsəfi problemləri əks etdirmişdir.

XX əsr Azərbaycan nəsrində nağıl təhkiyəsi müxtəlif formalarda təzahür etmişdir. Bəzi yazıçılar nağılvari süjet və obrazlardan istifadə etməklə bədii təsir gücünü artırmış, digərləri isə xalq nağıllarına yeni yozum gətirərək onları daha dərin məzmunla zənginləşdirmişlər. Mir Cəlal, İlyas Əfəndiyev, İsa Hüseynov, Mövlud Süleymanlı və digər yazıçıların əsərlərində nağıl təhkiyəsinin motivləri aydın şəkildə hiss olunur. Bu əsərlər xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın vəhdətini təmin edərək, oxucunu həm tanış obrazlarla, həm də yeni və maraqlı süjetlərlə qarşılaşdırmışdır.

Nağıl təhkiyəsi XX əsr Azərbaycan nəsrində təkcə süjet quruluşuna deyil, həm də üsluba təsir etmişdir. Yazıçılar nağıl dilinin sadəliyindən, bədii təsvir vasitələrinin zənginliyindən və şifahi ədəbiyyata xas xüsusiyyətlərdən istifadə etməklə oxucuya daha doğma və təsirli mətnlər təqdim etmişlər. Bu xüsusiyyətlər nağılvari nəsrin həm böyüklər, həm də uşaqlar üçün maraqlı və anlaşıqlı olmasını təmin etmişdir.

**Nəticə**

Beləliklə, XX əsr Azərbaycan nəsrində nağıl təhkiyəsi ədəbiyyatın milli xarakterini qoruyub saxlamış, onu yeni estetik dəyərlərlə zənginləşdirmişdir. Yazıçılar xalq ədəbiyyatına əsaslanaraq müasir problemləri işıqlandırmış, eyni zamanda, milli-mənəvi dəyərlərin davamlılığını təmin etmişlər. Nağıl motivlərinin və təhkiyə elementlərinin nəsrdə uğurlu şəkildə tətbiqi Azərbaycan ədəbiyyatının orijinallığını və bədii-estetik dəyərini daha da artırmışdır.

## ƏDƏBİYYAT

1. Əhmədov N. Azərbaycan nəsrinin poetikası. Bakı: Elm, 2005.
2. Əliyev M. Azərbaycan folkloru və nəsr əlaqələri. Bakı: Maarif, 1996.
3. Hacıyev M. Azərbaycan nəsrinin inkişaf yolları. Bakı: Yazıçı, 1988.
4. Hüseynov R. Folklor və yazılı ədəbiyyat problemləri. Bakı: Elm və təhsil, 2015.
5. İsmayılov R. Mifdən müasir nəsrə. Bakı: Çaşıoğlu, 2021.
6. Məmmədli A. XX əsr Azərbaycan nəsrində ənənə və novatorluq. Bakı: Elm və təhsil, 2019.
7. Mirzəyev Q. XX əsr Azərbaycan ədəbiyyatında folklor ənənələri. Bakı: Nurlan, 2010.
8. Paşayev A. Azərbaycan nağıllarının poetikası. Bakı: Elm, 2012.
9. Qasımov H. Azərbaycan yazılı ədəbiyyatında xalq motivləri. Bakı: Adiloğlu, 2003.
10. Seyidov M. Nağıl janrının tədqiqi məsələləri. Bakı: Şərq-Qərb, 2008.

***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, aparıcı elmi işçi**
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: seadet19710214@gmail.com***

**Saadat Bayramova**

## FEATURES OF FAIRYTALE TELL-ING IN 20TH CENTURY AZERBAIJAN PROSE

In 20th century Azerbaijani prose, fairy-tale storytelling played an important role in the dynamics of the development of national literature and was formed as one of the main components influencing the artistic style of writers. During this period, writers reworked traditional folklore elements in a modern literary context and integrated them into various artistic genres. The main features of fairy-tale storytelling are noticeable in 20th century Azerbaijani prose not only in terms of content, but also in terms of structure and style.

Fairy-tale storytelling is mainly based on specific elements of folk literature - such features as the possession of fantastic powers by heroes, the struggle between good and evil, the law of trinity, repetitions and the conventionality of images. In 20th century Azerbaijani prose, these features were synthesized and presented in various artistic styles. In particular, elements characteristic of folk tales are observed in the works of writers such as Jalil Mammadguluzadeh, Abdurrahim bey Hagverdiyev, and Yusif Vezir Chamanzaminli.

The article notes that in the Azerbaijani prose of the 20th century, fairy tale narration was an important literary tool reflecting the synthesis of traditional folk creativity and modern artistic and aesthetic values. This approach both increased the genre diversity of prose and contributed to the preservation and development of national and spiritual values.

**Keywords:** *fairy tale, narration, prose, folk creativity, literature*

**Сеадат Байрамова**

## ОСОБЕННОСТИ СКАЗКИ В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ XX ВЕКА

В азербайджанской прозе XX века повествование играло важную роль в динамике развития национальной литературы и являлось одним из основных компонентов, повлиявших на художественный стиль писателей. В этот период писатели перерабатывали традиционные фольклорные элементы в современном литературном контексте, интегрируя их в различные художественные жанры. Основные черты сказочного повествования заметны в азербайджанской прозе XX века не только в содержании, но и в структуре и стиле.

Сказочное повествование основывается прежде всего на отдельных элементах народной литературы, таких как фантастические способности героев, борьба добра со злом, закон триединства, повторы и условность образов. В азербайджанской прозе XX века эти черты были синтезированы и представлены посредством различных художественных стилей. Элементы, характерные для народных сказок, наблюдаются, особенно в произведениях таких

писателей, как Джалил Мамедкулизаде, Абдуррагим бек Ахвердиев, Юсиф Везир Чеменземинли.

В статье отмечается, что в азербайджанской прозе XX века повествование было важным литературным средством, отражающим синтез традиционного народного творчества и современных художественно-эстетических ценностей. Такой подход не только расширил жанровое разнообразие прозы, но и способствовал сохранению и развитию национальных и духовных ценностей.

**Ключевые слова:** *сказка, повествование, проза, народное творчество, литература*

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**